

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 34 (22.945)

20 fevral 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının uğurla inkişaf etdiyini bildirib. Prezident İlham Əliyev Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının təkcə energetika sahəsində deyil, digər sahələrdə də, o cümlədən siyasi, ticarət, investisiya, nəqliyyat, təhlükəsizlik, mədəniyyət sahələrində də genişləndirilməsinin vacibliyini qeyd edərək bütün bunların hazırda üzərində iş aparılan Avropa İttifaqı ilə Azərbaycan arasında yeni sazişdə öz əksini tapdığını vurğulayıb.

Avropa İttifaqı-Azərbaycan əlaqələrinin bütün sahələrdə müsbət istiqamətdə inkişaf etdiyini deyən Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar əməkdaşlığımızın yaxşı perspektivləri olduğunu bildirib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli ətrafında geniş fikir mübadiləsi aparılıb, bu istiqamətdə səylərin münaqişənin sülh və danışıqlar yolu ilə həllinə yönəldilməsinin vacibliyi qeyd olunub.

## Naxçıvanın enerji təhlükəsizliyi regionun iqtisadi inkişafının təminatçısıdır

***Müasir dövrdə enerji təhlükəsizliyinin təmin olunması dünya ölkələrinin əsas prioritetlərindəndir. Çünki bu təminat əldə olunmadan heç bir iqtisadi tərəqqidən, eləcə də digər sahələrin inkişafından danışmaq mümkün deyil. Bu sadə həqiqəti anlamaq gərəkdir ki, XXI əsrdə enerjinin yoxluğu, elə həyatın yoxluğu deməkdir. Digər tərəfdən cəmiyyət inkişaf etdikcə, insanların tələbatı artdıqca enerji və resurs tələbləri də artır. Nobel mükafatçısı, akademik Jores Alferov haqlı olaraq qeyd edir ki, bu gün bəşəriyyətin qarşısında energetika daha əhəmiyyətli bir problem dayanmır. Sivilizasiyanın mövcudluğu onun həllindən asılıdır.***

Sevindirici haldır ki, bu gün muxtar respublikamızın enerji təhlükəsizliyinin təmin olunması sahəsində əldə edilmiş müsbət nəticələr, ötən dövrdə bu sahədə həyata keçirilmiş mühüm tədbirlərin sayəsində mümkün olub. Ötən illərə qısa nəzər salsaq, görərik ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qazla işləmə rejiminə keçirilmiş, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmişdir. Eyni zamanda həmin ildə Şahbuz rayonunda Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası istifadəyə verilmişdir. 2010-cu ildə Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 2014-cü ildə Şərur rayonunda 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları, 2015-ci ildə Babək rayonunda 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi bu sahədə mühüm nəticələrin əldə olunmasına imkan vermişdir. Hazırda isə yeni elektrik stansiyalarının yaradılması istiqamətində işlər davam etdirilir. Müqayisəli olaraq onu qeyd edək ki, əgər 1995-ci ildə muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, hazırda bu müəssisələrin sayı 8-ə çatdırılmışdır. Yeni yaradılmış güclər daxili istehlakı tam ödəməklə yanaşı, muxtar respublikanı enerji ixrac edən regiona çevirmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikanın enerji təhlükəsizliyini xarakterizə edərkən demişdir: ***"Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".***

Vurğulamaq lazımdır ki, enerji istehsalında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə mühüm əhəmiyyət daşıyır. Hazırda muxtar respublikanın enerji ehtiyatlarına olan tələbatının 60 faizinin məhz alternativ enerji hesabına ödənilməsi indiyədək görülən işlərin həcmini və mahiyyətini bir daha özündə əks etdirir. Muxtar respublikanın təbii şəraiti hazırda da bu istiqamətdə işlərin davam etdirilməsinə imkan verir. Muxtar respublikada enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Elektrik enerjisi ilə problem yoxdur. Hesab edirəm, gün gələcək ki, Naxçıvan bütün enerji tələbatını bərpa olunan enerji növləri hesabına təmin edəcək".***

Təbii ki, enerji təminatı sahəsində həyata keçirilmiş tədbirlər muxtar respublika iqtisadiyyatına da öz təsirini göstərməkdədir. Xüsusilə daxili məhsul istehsalında sənayeləşmənin həcminin ildən-ilə artması bu sektorun inkişafından birbaşa asılıdır. Hər il rəqabətədavamlı yeni istehsal sahələrinin yaradılması sənayedə iqtisadi dinamikanın qorunmasına öz töhfəsini verir. Məsələn, 2017-ci ildə muxtar respublikada 967 milyon 60 min manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da 2016-cı ilin göstəriciləri ilə müqayisədə 1,4 faiz çoxdur. Yaradılmış yerli istehsal sahələrinin nəticəsində bu gün muxtar respublikada 372 növdə məhsul istehsal olunur. Bu məhsulların 125 növü ərzaq, 247 növü qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 236-sı qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilir. İqtisadiyyatın davamlı inkişafı, yerli istehsal həcminin artması muxtar respublikanın ixrac imkanlarını da genişləndirir. Bunun nəticəsidir ki, hazırda Naxçıvan Muxtar Respublikası dünyanın 50-dən çox ölkəsi ilə ticarət əlaqələrinə malikdir. İqtisadiyyatda müsbət dinamika xarici ticarət əlaqələrində müsbət saldonun əldə saxlanılmasına da öz töhfəsini verir və müxtəlif adda yerli məhsulların ixrac imkanlarının artması səbəbindən artıq 9 ildir ki, belə saldo qeydə alınır. Ümumilikdə, regionun iqtisadi potensialının artmasının nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikası Prezidentinin sədri olduğu "Caspian European Club"un 2017-ci il üçün hazırladığı investisiya reytinqində ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxmışdır.

Əlbəttə, iqtisadi inkişaf yalnız sənayeləşmə ilə ölçülmür. Burada digər sahələr üzrə qazanılmış nailiyyətlərdən də bəhs etmək mümkündür. Sadə həqiqət isə ondan ibarətdir ki, enerji təminatı yaratmadan, xüsusilə elektroenergetikanın inkişafına nail olmadan heç bir sahədə, o cümlədən iqtisadi sektorda müsbət dinamikadan danışmaq olmaz. Buradan da o nəticəyə gəlmək mümkündür ki, Naxçıvanın enerji təhlükəsizliyi regionun iqtisadi inkişafının əsas təminatçısıdır.

✍ Səbuhi HƏSƏNOV

***Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonu 2017-ci ili bütün sahələrdə böyük uğurlarla başa vurub. Bu baxımdan aqrar sahədə qazanılan nəticələr də ürəkaçandır. Daxili bazarda bolluq yaradılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli imkanlar hesabına ödənilməsi istiqamətində həyata keçirilən tədbirlər, kənd təsərrüfatının inkişaf etdirilməsi üçün yaradılan şərait şərurlu torpaq mülkiyyətçilərinin daxili bazara verdiyi töhfələrdə başlıca amillər kimi diqqəti çəkir.***

## Daxili bazarda ərzaq məhsulu bolluğu yaradılıb

Rayonun iqtisadiyyatında taxılçılıq mühüm yer tutur. Bölgənin məhsuldar torpaq sahələri, uzun illərin təcrübəsi və yaradılan şərait bu sahənin inkişafına marağı getdikcə artırır. Bu səbəbdəndir ki, ötən il də taxılçılıqda yüksək göstəricilərə nail olunub. Belə ki, 3598 hektar sahədən 11 min 467 ton buğda, 546 hektar sahədən 1704 ton arpa tədarük edilib. Cari ilin məhsulu üçün ötən ilin sonlarında 5250 hektar sahədə şum qaldırılıb, 4008 hektar sahədə dən üçün payızlıq səpin aparılıb. Bunun 3602 hektarı buğda, 406 hektarı isə arpadır.

Şərurun torpaq mülkiyyətçiləri 2017-ci ildə 4636 hektar sahədə dənli və dənli-paxlalı bitkilər əkiblər. Əkinlərə vaxtlı-vaxtında aqrotexniki qulluq göstərilib, bol məhsul istehsalına nail olunub. Belə ki, məhsuldarlıq orta hesabla 31,8 sentner olmaqla, əkin sahələrindən 14 min 736 ton məhsul toplanılıb. Dənli-paxlalılar əkilmiş 492 hektar sahədən 1565 ton məhsul tədarük edilib. 1237 hektar dən üçün qarğıdalı əkini sahəsindən 10 min 20 ton məhsul yığılıb. Dən üçün günəbaxan əkini sahəsində də yüksək artım müşahidə edilib. Belə ki, torpaq mülkiyyətçiləri 32 hektar sahədən 86 ton məhsula sahib olublar.

İkinci çörək sayılan kartofun əkilib-becərilməsinə də ciddi önəm verilib. Bəhs olunan dövrdə 1064 hektar kartof əkini sahəsindən 15 min 889 ton kartof tədarük edilib.

Bostan məhsullarının əkilib-becərilməsinə üstünlük verilən bölgədə torpaq mülkiyyətçiləri 475 hektar bostan bitkiləri əkini sahəsindən 6536 ton bostan məhsulları yığıblar.

Muxtar respublikamızda meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi diqqətdə saxlanılıb. Belə ki, torpaq mülkiyyətçiləri və sahibkarlar 1814 hektar tərəvəz bitkiləri əkini sahəsindən 33 min 645,3 ton tərəvəz məhsulları, barverən meyvə bağlarından 20 min 940,4 ton, üzüm bağlarından 1532 ton məhsul tədarük ediblər.

Rayonda təzə və ekoloji cəhətdən sağlam ət, süd və süd məhsullarına olan tələbatı torpaq mülkiyyətçiləri yerli istehsal hesabına ödəməyə çalışırlar. Bölgədə baytarlıq xidmətinin düzgün təşkili bu sahədə də nəzərəçarpan uğurların qazanılmasına imkan verib. Bunun nəticəsidir ki, bəhs olunan dövrdə rayonda diri çəkidə 8226,7 ton ət, 27 min 698 ton süd, 21 min 756 min ədəd yumurta, 189,6 ton yun istehsal edilib.

Onu da qeyd edək ki, rayonda son illər arıçılığa da maraq xeyli artıb. Bu səbəbdəndir ki, ötən il bölgədə 182 ton bal istehsal olunub. Balıqçılıqla məşğul olan müəssisələr tərəfindən isə 2017-ci ildə 162 min manat dəyərində balıq satılıb ki, bu da əvvəlki illə müqayisədə xeyli çoxdur.

Ümumilikdə, 2017-ci ildə rayonun kənd və balıqçılıq təsərrüfatlarında 140477,2 min manatlıq məhsul istehsal olunub ki, bu da əvvəlki illə müqayisədə 3,5 faiz çoxdur.

Məlumat üçün qeyd edək ki, bəhs olunan dövrdə rayonun Yengicə kəndində 1 quşçuluq, Şahbulaq kəndində 1 arıçılıq, Dərvişlər, Kürçülü, Axura, Danyeri kəndlərinin hər birində 1 heyvandarlıq təsərrüfatı, Şərur şəhərində isə 1 un məmulatları sexi yaradılıb.

Rayonda istehsal olunan meyvə və tərəvəz məhsullarının tələbatdan artıq hissəsi saxlanılaraq müvafiq mövsümlərdə satışı üçün Danyeri kəndində 250, Qarabürc kəndində 80, Məmmədsabir kəndində 320, Düdəngə kəndində 2 sahibkarda 360 və 450, Cəlilkənddə 600, Püsyan kəndində 450, Çərçiboğan kəndində 80, Aşağı Aralıq kəndində 150, Yuxarı Aralıq kəndində 180, Sərxanlı kəndində isə 80 ton olmaqla, ümumi tutumu 3 min ton təşkil edən soyuducu anbarlar fəaliyyət göstərir.

Ötən il qazanılan uğurlar torpaq mülkiyyətçilərinin ailə büdcəsinə xeyli gəlir gətirib. Bundan ruhlanan Şərurun əmək adamları 2018-ci təsərrüfat ilini daha yüksək nəticələrlə başa vurmaq əzmi ilə cari təsərrüfat ilinə hazırlaşırlar.

✍ Muxtar MƏMMƏDOV

*Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 16 fevral tarixli Sərəncamı hər bir rayon sakini tərəfindən sevinc və böyük minnətdarlıq hissi ilə qarşılanır. Sərəncamda deyilir:* ***"Ötən əsrin 70-ci illərində xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi quruculuq xətti Azərbaycanın regionlarını da əhatə etmiş, Naxçıvan Muxtar Respublikasında yeni rayonun yaradılması qərara alınmışdı. 1978-ci il oktyabrın 23-də təşkil olunmuş rayona xalq qəhrəmanı Babəkin adının verilməsi ulu öndərimizin qətiyyətinin, daim azərbaycançılıq mövqeyində dayanması istiqamətində həyata keçirdiyi tədbirlərin nəticəsi idi.***

***Yarandığı gündən ötən dövr ərzində Babək rayonu böyük inkişaf yolu keçmişdir. Hazırda rayonun əksər kəndlərində kompleks quruculuq işləri aparılmış, rayon ərazisi elektrik enerjisi və təbii qazla, poçt, geniş zolaqlı və simsiz internet xidmətləri ilə təmin edilmişdir".***




**Babək rayonu — 40**




# böyük inkişaf yolu keçib




Deyirlər, abad Vətən orada yaşayan insanların birliyindən, vəhdətindən doğar. Vətən ona sahib çıxacaq, dəyər verəcək, uğruna hər zillətə qatlaşacaq övladları olmasa, Vətən deyil. Göstərilən dövlət qayğısı, yurd eşqi, torpağa, el-obaya bağlılığın işığında bu gün Babək rayonu da inkişaf edir, insanları rahat, firavan yaşayır. Bu yeniliyin, müasirliyin əsasında məhz elə Vətən sevgisi dayanır.

40 il bundan öncə yaradılan Babək rayonu ötən əsrin 90-cı illərində ağır sınaq dövrü yaşadı. O dövrün canlı şahidləri yaxşı xatırlayır ki, aqrar sahə üçün olduqca perspektivli olan bu rayonun hektarlarla torpaq sahəsi "ağzı günə yatır", kərəntisi, orağı çiynində olan kəndli əkin-biçinə yox, məhz ucqar dağ və sərhəd kəndlərinin müdafiəsinə gedirdi. Çox da uzaq olmayan o keçmişdən bizi 25 il ayırır. 90-cı illərdə rayonun Buzqov, Gərməçataq kimi kəndlərində tez-tez mərmi səsi eşidilir, mənfur düşmən sabitliyi pozurdu. Bu yerlər faktiki olaraq işğal təhlükəsində idi. Xalqın yeganə nicat yolu isə ulu öndər Heydər Əliyev idi. O illərdə doğma Vətəninə gələn dahi rəhbər, ümumilikdə, Naxçıvanı qoruyub saxlayaraq onun bugünkü inkişafının təməl daşlarını atdı. Ümummilli liderin siyasi yoluna sadiqlik isə bu gün həmin kəndlərə yeniləşmə, müasirləşmə, sabitlik gətirib.





Artıq yerləşdiyi coğrafi mövqedən asılı olmayaraq, Babək rayonunun kəndlərində də sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılıb. Elə götürək, az öncə haqqında danışdığımız Gərməçataq kəndini. Bir zamanlar naxçıvanlıların əldə ov tüfəngi ilə keşik çəkdiyi mövqelərdə indi mənfur ermənilərin qorxulu röyasına çevrilən Azərbaycan əsgəri dayanıb. Əldə olunmuş davamlı sabitlik Gərməçatağa da yenilik gətirib. 2017-ci ildə buradakı məktəb binası əsaslı şəkildə yenidən qurulub, kənd və xidmət mərkəzləri inşa olunub, yol çəkilib və digər infrastruktur layihələr icra edilib. Görülən işlər sakinlərin torpağa daha sıx tellərlə bağlanmasına, buradan köçüb gedənlərin yenidən doğma od-ocağa qayıtmalarına səbəb olub.

2017-ci ildə rayonun ucqar dağ kəndlərindən olan Payızda Ali Məclis Sədrinin iştirakı ilə bir gündə 4 yeni sosial obyektin və kənd yolunun istifadəyə verilməsini sakinlər dərin minnətdarlıqla xatırlayırlar. Sovet dönəmindən bəri yığılıb qalan sosial problemlər artıq həllini tapıb. Kənddə təsərrüfatların sayı hər ötən il artır, bol məhsul istehsal olunur.





Ümumiyyətlə, rayonda hər il tikinti-quruculuq tədbirlərinin əhatə dairəsi genişlənir. 2017-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 66 milyon 617 min 100 manat vəsait yönəldilib. Bu da bir il öncəki göstəricidən 0,7 faiz çoxdur. İnvestisiya qoyuluşlarının 64 milyon 307 min 800 manatı və ya 96,5 faizi tikinti-quraşdırma işlərində istifadə edilib.

Bəhs olunan dövrdə rayonda İcra Hakimiyyətinin inzibati binası, Nehrəmdə Heydər Parkı istifadəyə verilib, yeni üzümçülük təsərrüfatı yaradılıb. Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhərinin Xətai məhəlləsinə birləşdirən yol, eləcə də həmin kəndlərdə içməli su və kanalizasiya şəbəkəsi qurularaq Ali Məclis Sədrinin iştirakı ilə istifadəyə verilib.

Görülən işlər bu kəndlərin hüsnünə yeni naxışlar vurub və sakinlərin böyük sevincinə səbəb olub. Nehrəm kənd sakini Vahid Həsənovun dediklərindən: "İllər öncə kəndimizdəki köhnə hasarlar, tozlu-torpaqlı yollar, sınıq-salxaq körpü, məktəb illərini keçirdiyimiz kiçik, birmərtəbəli bina artıq tarixə qovuşub. Dəyişən çox şey var. Son illər 3 tam orta məktəb binası, xəstəxana, kənd və xidmət mərkəzləri və digər obyektlər istifadəyə verilib, dairəvi avtomobil yolu yenidən qurulub, müasir layihə əsasında kənd məscidi tikilib. Bu, artıq Naxçıvanın bütün kəndlərinin imicini formalaşdırır. Ötən ilin avqust ayında isə kəndimizdə Heydər Parkı istifadəyə verilib. Parkın salındığı ərazi tarixi məkandır. O mənada ki, xalqımızın böyük oğlu Heydər Əliyev ötən əsrin sonlarında məhz burada nehrəmlilərlə görüşüb. Ümumiyyətlə, Nehrəm ulu öndərin siyasi xəttini həmişə dəstəkləyib. Dahi rəhbərin Nehrəm seçki dairəsindən Azərbaycan Ali Sovetinə deputat seçilməsi buna bariz nümunədir. İndi isə həmin ərazidə park salınıb, sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün tədbirlər görülüb, üçrəngli Dövlət Bayrağımız ucaldılıb. Bu əlamətdar hadisə hər bir nehrəmlinin həyatında silinməz izlər buraxıb. Yeni üzümçülük təsərrüfatında isə çox sayda iş yeri açılıb. Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında Ali Məclis Sədrinin bu günlərdə imzaladığı müvafiq sərəncam hər bir rayon sakini tərəfindən minnətdarlıqla qarşılanır. Əminik ki, müstəqillik illərində misligörünməmiş inkişafa qədəm qoymuş Babək rayonunun qəsəbə və kəndlərində bu il də geniş quruculuq işləri aparılacaq".

2017-ci il avqustun 18-də isə Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhərinin Xətai məhəlləsinə birləşdirən yol və həmin kəndlərdə su və kanalizasiya şəbəkəsi istifadəyə verilib. Su təchizatı və kanalizasiya investisiya proqramına uyğun olaraq hər iki kənddə, ümumilikdə, 37,3 kilometr uzunluğunda müxtəlif diametrli borularla içməli su xətti çəkilib, 1103 evə su verilərək sayğac quraşdırılıb, 4 mindən artıq sakin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunub. Şıxmahmud və Xəlilli kəndlərində müxtəlif diametrli borularla 34,5 kilometr uzunluğunda kanalizasiya xətləri də çəkilib və bütün mənzillər şəbəkəyə qoşulub.

Şıxmahmud kənd sakini Zahid Tağıyev minnətdarlıq edərək deyir ki, yeni yol və su-kanalizasiya şəbəkəsinin qurulması Şıxmahmud və Xəlilli kəndlərinin həyatına bir yenilik gətirib. Müdriklər deyiblər ki, yol mədəniyyət, iqtisadiyyat, bir sözlə, inkişaf deməkdir. Əvvəllər bu yol istifadəyə yararsız olduğu üçün kənd əhalisi, əsasən, Naxçıvan-Şahbuz magistral yoluna üstünlük verirdi. Artıq bu çətinlik aradan qalxıb. Yol salmaq, su çəkdirmək ta qədimdən savab iş sayılıb. Bu işləri görənlərə minnətdarıq.

Ümumiyyətlə, rayonun bugünkü inkişafına ümummilli liderimiz Heydər Əliyevin ideyalarının muxtar respublikada uğurlu icrası nəticəsində nail olunub. 2018-ci ildə təşkil olunmasının 40 illiyini qeyd edən Babək rayonunda bu münasibətlə silsilə tədbirlər keçiriləcək, yeni inkişaf salnaməsi yazılacaq.

Rayonun günbəgün müasirləşən infrastrukturu, əhalinin sosial həyat şəraitinin yaxşılaşdırılması aqrar sahənin inkişafına öz töhfəsini verməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası Babək rayonunda əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə geniş imkanlar yaradıb. 2017-ci ildə meyvə istehsalı bir il öncəyə nisbətən 1,8, tərəvəz istehsalı isə 4,7 faiz artıb. Ötən il rayonda üzümçülüyün inkişafı istiqamətində yeni bağların salınmasına və üzüm tinglərinin becərilməsinə başlanılıb. Bundan başqa, ötən il 33 min 507 ton dənli və dənli-paxlalılar (qarğıdalısız), 216 ton dən üçün günəbaxan, 23974,2 ton tərəvəz, 22458 ton ərzaq üçün bostan məhsulları, 7008,9 ton meyvə, 5842,8 ton üzüm toplanılıb.

Bölgədə kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişafı istiqamətində də ardıcıl tədbirlər həyata keçirilib, Şıxmahmud və Naxışnərgiz kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatı yaradılıb.

Əlverişli təbii iqlim, kənd adamlarına yaradılan şərait, suvarma imkanlarının yaxşılaşdırılması torpaq mülkiyyətçilərinin taxıl əkinlərinə hər il geniş yer vermələrinə səbəb olub. Bu gün kəndlinin özünün pay torpağı, suyu, kənd təsərrüfatı texnikaları var. Bol məhsul istehsal edərək daxili bazarın yerli məhsullarla təminatına babəkli torpaq mülkiyyətçiləri də töhfə verməyə çalışırlar.

***Babək rayonu ötən ili quruculuq və iqtisadi irəliləyişlərlə yola salıb. İnkişafın təməlində isə rayona göstərilən böyük diqqət və qayğı dayanır. Naxçıvanın hər bir guşəsində aparılan irimiqyaslı tikinti-quruculuq tədbirləri Babək rayonunun görkəmini də tanınmaz dərəcədə dəyişib. Bu mənzərə isə doğma yurda qədəm qoyanları heyrətləndirir, təəssüratlarını zənginləşdirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında 2018-ci il 16 fevral tarixli Sərəncamı isə bu diyarın inkişafına göstərilən növbəti dövlət qayğısının bariz ifadəsidir.***

**Muxtar RZAZADƏ**
*"Şərqin səhəri" qəzetinin redaktoru*

Şamil Qazıyev – 110

## Natella Qazıyeva: “Atamın yubileyinin qeyd olunması incəsənətə, mədəniyyət tariximizə, mənəvi irsimizə verilən yüksək qiymətdir”

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında” 2018-ci il 1 fevral tarixli Sərəncamı görkəmli rəssamın həyat və fəaliyyətinin yenidən tədqiq olunması ilə yanaşı, həm də mədəniyyətimizin öyrənilməsinə xidmət edən mühüm dövlət sənədidir. Bu günlərdə paytaxt Bakı şəhərində olarkən unudulmaz rəssamın qızı Natella Qazıyeva ilə görüşüb rəssamın ömür yoluna bir daha nəzər saldıq.***



*Haşiyə: Qazıyeva Natella Şamil qızı 1947-ci ildə Naxçıvan şəhərində anadan olub. 1965-ci ildə Bakı şəhərindəki 1 nömrəli rus məktəbini müvəffəqiyyətlə bitirib. Həmin ildə Bakı Dövlət Universitetinin Biologiya və kimya fakültəsinin Biologiya ixtisasına daxil olub. 1966-2016-cı illərdə Azərbaycan Elmlər Akademiyasının Zoologiya İnstitutunda çalışıb. 50 elmi məqalənin, 1 patentin müəllifidir. Hazırda təqaüdçüdür.*

***– Natella xanım, bildiyiniz kimi, bu il Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, görkəmli rəssam Şamil Qazıyevin anadan olmasının 110 illik yubileyi qeyd olunur. İstərdik, atanızın həyat yoluna qısa bir nəzər salaq.***

– İnsan həyatı o zaman ölümsüzlüyə qovuşur ki, onun ömrünü, arzularını ləyaqətlə davam etdirən fədakar övladlar yetişdirə bilsin. Bəli, bu mənada, millətin maariflənməsi yolunda yarım əsrdən artıq əmək sərf edən babam Həsən Qazıyev xoşbəxt ata idi. Babam 1878-ci ildə İrəvan şəhərində anadan olub, elə orada da yaşayırmış. Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan ərazilərinin hesabına qondarma Ermənistan respublikası yaradılıb. Bolşeviklərlə həmrəylik edən daşnaklar həm İrəvanda, həm də ətraf bölgələrdə azərbaycanlılara qarşı işğalçılıq siyasəti yeridərək görünməmiş vəhşiliklər törədiblər. İrəvanın özündə azərbaycanlılara sui-qəsdlər edilib, talanlar törədilib, evlər yandırılıb, repressiyalar baş verib. Belə bir zamanda babam ailəsi ilə birlikdə Naxçıvan şəhərini özünə sığınacaq seçib. Beləliklə, 1908-ci ildə İrəvan şəhərində anadan olmuş babamın sevimli oğlu Şamil Qazıyev 12 yaşından etibarən ailəsi ilə birlikdə Naxçıvanda yaşamağa başlayıb. Atam dünyaya İrəvanda göz açsa da, onu Naxçıvan torpağı yetişdirib, Naxçıvan mühiti formalaşdırıb. Bütün həyatını rəssamlığa həsr edən Şamil Qazıyev hələ uşaq ikən rəsm çəkməyə böyük həvəs göstərib. Bu sənətin sirlərini məşhur rəssam Bəhruz Kəngərlidən öyrənib. Əvvəllər Naxçıvan Pedaqoji Texnikumunda oxusa da, təsviri incəsənətə olan marağına görə pedaqoji təhsilini davam etdirməyib. Uşaqlıqdan qəlbinə hakim kəsilmiş rəng və fırça ilə işləmək arzusu onu Bakıya, Rəssamlıq Məktəbinə gətirib və bu məktəbi 1929-cu ildə müvəffəqiyyətlə bitirərək Naxçıvana qayıdıb. Burada Naxçıvan Pedaqoji Texnikumunda müəllim vəzifəsində çalışıb.

Naxçıvan teatrının baş rəssamı kimi onun tamaşalara verdiyi bədii tərtibatlar səhnə əsərlərinin məzmununu açmağa kömək edib, hər bir detalın, rəngin, görüntünün sayəsində yaradıcı kollektivin arzu və məramını təsviri sənətin köməyi ilə dolğun ifadə etməyə nail ola bilib. Atam, sadəcə, tərtibatçı-rəssam kimi fəaliyyət göstərməklə kifayətlənməyib. Ən böyük arzularından biri o olub ki, doğma yurdda Bəhruz Kəngərlinin davamçıları yetişsin. Elə bu səbəbdən rəsmə həvəs göstərən uşaqlara, gənclərə dəstək olub. Məhz onun təşəbbüsü ilə Naxçıvan şəhərində 1940-cı ildə rəssamlıq məktəbi açılıb. Məktəbin direktoru olan Şamil Qazıyev rəssamlıq istedadı olan gənc kadrların yetişməsi istiqamətində hərtərəfli yaradıcılıq fəaliyyətinə görə 1944-cü ildə ilk dəfə muxtar respublikanın Əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb.

1948-ci ildə atam yenidən Bakıya qayıdıb və “Azərbaycan gəncləri” qəzetində baş rəssam, tərtibatçı kimi çalışıb. Ömrünün sonuna qədər elə bu qəzetdə də fəaliyyət göstərib. 1980-ci ildə 72 yaşında Bakıda vəfat edib.

***– Atanızın yaradıcılığında rəssamlığın müxtəlif janrlarına – qrafika, natürmort, etüd, portret əsərlərinə rast gəlinir. Bu çoxşaxəliliyi necə izah edə bilərsiniz?***

– Gözəllik aşiqi idi atam. Təbiətin gözəlliklərinə heyran idi. O, təbiətə çoxlarının baxa bilmədiyi gözlə baxırdı. Bu zaman onda qeyri-adi yaradıcı təxəyyül, bu təxəyyüldən isə ürəkdə məhəbbət, dəli bir təbiət vurğunluğu baş qaldırırdı. Hərdən təbiətə biganə münasibət görəndə kövrələrdi də. Atam həmişə deyərdi ki, təbiət əsl gözəllikdir, gözəllik isə ilham mənbəyidir. Bu gözəlliyi sevməmək olarmı? O, Naxçıvanın füsunkar təbiətinin qoynunda saatlarla gəzər, onun əsrarəngiz gözəlliklərinə baxmaqdan doymazdı. Eyni zamanda atam Azərbaycan etnoqrafiyası ilə də dərindən maraqlanardı. Onun sənət əsərlərində bunu aydın görmək olar.

***– Şamil Qazıyevin əsas fəaliyyəti teatr rəssamlığı ilə bağlı olub. Ömrünün böyük bir qismini teatra həsr edib.***

– Bəli, atam hələ Bakıda rəssamlıq məktəbində oxuyarkən Naxçıvan teatrının direktoru Əli Xəlilov ondan böyük pərdənin tərtibatını istəyib. Atam isə həmin tərtibatı mükəmməl şəkildə işləyib hazırlayıb. Bu, hədsiz bəyənilib. Onun teatrla bağlı xatirələrinin birində yazılıb: “1932-ci ildə rejissor Yusif Ulduzun quruluşunda Naxçıvan teatrında tamaşaya qoyulmuş “Hamlet” əsərinə tərtibat verdim. Lakin o zaman mən teatrda həvəskar kimi iştirak edirdim. 1934-cü ildə Xalq artisti Sidqi Ruhulla məni teatra rəssam vəzifəsinə çağırdı və onunla “Hacı Qara”, “Namus” tamaşalarına tərtibat verdim”. Atam Bakıda rəssamlıq məktəbini bitirdikdən sonra Naxçıvana qayıdıb və orada teatrda çalışmağa başlayıb. Öz bacarığı, işgüzarlığı ilə ilk gündən teatr kollektivinin rəğbətini qazanıb. Burada çalışdığı 16 ildə teatrda tamaşaya qoyulmuş 120 əsərin bədii tərtibatı məhz atama məxsus olub. Eyni zamanda həmin dövrdə “Şərq qapısı” qəzetində də rəssam kimi fəaliyyət göstərib.

***– İşlədiyi dövrdə istedadlı rəssamın Azərbaycanın bir çox tanınmış sənət adamları ilə əlaqələri olub. Hətta bilirik ki, Xalq rəssamı Əzim Əzimzadənin dəvəti ilə Bakıya gələrək burada “Kommunist” qəzetində işləməyə başlayıb.***

– Bəli, atamın yaradıcılığına, fırça ilə işləmək qabiliyyətinə, öz fantaziyası ilə rənglərin vəhdətindən orijinal əsərlər yaratmaq istedadına yaxından bələd olan məşhur karikaturaçı rəssam, mollanəsrəddinçi Əzim Əzimzadə həmkarını “Kommunist” qəzetində işləməyə dəvət edib. O zaman Əzim Əzimzadə bu qəzetin redaksiyasında baş rəssam vəzifəsində çalışırmış. Bir müddət “Kommunist” qəzetinin rəssamı olan Şamil Qazıyev qaynar paytaxt həyatında peşəkar rəssam kimi fəaliyyət göstərib. Lakin onun Bakıda işləməsi uzun çəkməyib. Yenidən Naxçıvana qayıdıb.

***– Rəssamın bir çox yerlərdə sərgiləri keçirilib...***

– Müxtəlif illərdə təsviri incəsənət sərgilərinin iştirakçısı olan Şamil Qazıyevin “Çoban” adlı əsəri bəyənilərək Tretyakov qalereyasına aparılıb. 1978-ci ildə Naxçıvan şəhərində atamın fərdi sərgisi olub. Sərgidə onun çoxsaylı əsərləri nümayiş etdirilib. Həm mövzu, həm də janr etibarilə diqqətçəkən bu rənglər dünyası tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Həmin əsərlərin əhəmiyyətli cəhəti haqqında o dövrün mətbuatı belə yazırdı: “Bu təsvirlərdə Azərbaycanın ən qədim guşəsi olan Naxçıvanın keçmiş tarixinə, etnoqrafiyasına, adətlərinə aid təsəvvürlər öz əksini tapıb”. Onun əsərləri bu gün də sevilir.

***– Atanızla bağlı xatirələriniz...***

– Qeyd etdiyim kimi Şamil Qazıyev Vətənimizin təbiətinə çox bağlı idi. Təbiətdə bitən hər bir çiçəyin, otun adını bilirdi. Eyni zamanda heyvanların da dilindən anlayırdı. Doğrudur, rəssamlar hər zaman təbiətə bağlı insanlar olurlar. Atamda isə təvazökarlıqdan uzaq olsa da, deyim ki, bu bağlılıq, bu sevgi daha fərqli idi. Məsələn, mən tələbə olduğum zaman, ixtisasıma – biologiya sahəsinə uyğun kitablar alıb gətirirdi. Bəzən o kitablarla ilk tanışlığımda düşünürdüm ki, bunlar müxtəlif bitkilər, heyvanlar haqqında yazılmış ümumi məlumat nəşrləridir. Hətta bəzən atama deyirdim: – Bunları mənə niyə alırsan? Mən ki öz tədris vəsaitlərimi oxumağa ancaq vaxt ayıra bilirəm. Ancaq o mənimlə razılaşmayaraq tövsiyə edirdi ki, bu, sənin sahəndir, sən təbiəti dərindən öyrənməlisən. O, hər zaman oxumağı, elmlə məşğul olmağı tövsiyə edirdi. Sonralar yaşım artdıqca və bu ixtisasa dərindən yiyələndikcə atamın kitab seçimində nə qədər haqlı olduğunu gördüm. Yəni belə misalları çox çəkmək olar.

***– Bu gün görkəmli rəssamın sənətini yaşadanlar arasında onun irsi davamçıları da vardır. Onlar haqqında nə deyə bilərsiniz?***

– Bəli, ailəmizdə bu ənənə indi də davam edir. Böyük qardaşım Arif Qazıyev Azərbaycanın Əməkdar rəssamıdır. Digər qardaşım Vaqif Qazıyev isə heykəltəraşdır. Nəvələri Samir, Mədinə, İlahə heykəltəraş və rəssam olmaqla babalarının yolunu layiqincə davam etdirirlər.

***– Siz necə, əgər rəssam olsaydınız atanızın portretini necə təsvir edərdiniz?***

– Atam, hər şeydən əvvəl, çox gözəl insan idi. Öz mülayimliyi, xoş xasiyyəti ilə təkcə ailəsinin deyil, elə hamının sevimlisi idi. Xaraktercə mülayim biri idi. Bir haqsızlıqla rastlaşanda məsələyə çox təmkinlə yanaşar, tələsik qərar verməzdi, eyni zamanda güzəştə getməyi bacarardı. Dərin intellekti ilə yanaşı, həm də həddən çox zəhmətsevər, ətrafındakı insanlara, təbiətə, ümumiyyətlə, hər şeyə qarşı çox duyumlu idi. Buna görə də rəssam olsaydım, atamın portretini elə Şamil Qazıyev kimi də təsvir edərdim.

Yeri gəlmişkən, onu da bildirmək istəyirəm ki, bu gün Naxçıvanda elmə, təhsilə, mədəniyyətə böyük dövlət qayğısı göstərilir, tanınmış insanların yubileyləri yüksək səviyyədə qeyd olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin atam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında bu yaxınlarda imzaladığı sərəncam da ailəmizi çox sevindirdi. Bu, atamın şəxsiyyətinə və yaradıcılığına, eyni zamanda bütövlükdə muxtar respublikada incəsənətə, mədəniyyət tariximizə, mənəvi irsimizə verilən yüksək qiymətdir. Buna görə qəzetiniz vasitəsilə Qazıyevlər ailəsi adından bir daha dərin minnətdarlığımı bildirirəm.

***– Maraqlı müsahibə üçün sağ olun.***

**Gülcamal TAHİROVA**
*Naxçıvan-Bakı-Naxçıvan*

***Naxçıvan Muxtar Respublikası ərazisindəki tarixi abidələrin bir qismi Gilançay vadisində, Gəmiqaya ətrafında yerləşir. Gəmiqaya hər zaman haqqında söylənilən miflərlə, yazılı daş salnamələri ilə geniş elmi ictimaiyyətin diqqətindədir. Buradakı abidələr, qayaüstü təsvirlər kompleks şəkildə Azərbaycanın qədim mədəniyyət və incəsənət xəzinəsinin qızıl fonduna daxildir. Gəmiqaya ətrafındakı abidələrin tədqiqi Naxçıvan ərazisində minilliklər boyu yaşamış insanların həyat tərzini, mədəni inkişaf yollarını, dini-ideoloji görüşlərini, məşğuliyyət sahələrini və digər aktual məsələləri dərindən öyrənməyə imkan verir.***

Yeni nəşrlər

## Naxçıvan arxeologiyası ilə bağlı dəyərli əsər




Gəmiqaya abidəsində ilk tədqiqatlar 1968-ci ildə aparılıb. Bu dövrdə oradakı qayaüstü təsvirlərin tədqiqi ilə yanaşı, ətraf ərazilərdəki Tunc, Dəmir, antik və orta əsrlər dövrlərinə aid bir neçə abidə qeydə alınaraq kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilib. Ötən əsrin 70-ci illərində, ümummilli lider Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyinin birinci dövründə abidənin sistemli şəkildə öyrənilməsi nəticəsində bir çox elmi nəticələr əldə edilib. Azərbaycanın müstəqillik əldə etməsindən sonra, ümummilli lider Heydər Əliyevin hakimiyyətinin ikinci dövründə respublikamızın bütün bölgələrində olduğu kimi, Naxçıvanda Gilançay vadisindəki arxeoloji abidələrin öyrənilməsinə də böyük diqqət və qayğı göstərilib. 2001-ci il aprelin 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən imzalanmış “Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında” Sərəncamdan sonra Gəmiqaya abidəsinə arxeoloji ekspedisiya təşkil edilərək bu sahədə tədqiqatlar davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2005-ci il dekabrın 6-da imzalanmış “Naxçıvan Muxtar Respublikası ərazisində tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” Sərəncam bu sahədə tədqiqatların aparılmasına böyük təsir göstərib. Sərəncama əsasən muxtar respublikanın bütün bölgələri kimi Gəmiqayaya da arxeoloji ekspedisiya təşkil edilib. Ekspedisiya nəticəsində bu ərazidə olan bir çox arxeoloji, tarixi abidələr aşkar edilib. Sərəncamdan irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsi nəticəsində bir çox tədqiqat əsərləri yazılıb. Tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilovun bu günlərdə çapdan çıxmış “Gəmiqaya ətrafında arxeoloji tədqiqatlar” monoqrafiyası da belə tədqiqat əsərlərindəndir.

Monoqrafiyanın elmi redaktoru və ön sözün müəllifi AMEA-nın müxbir üzvü Vəli Əliyev, elmi məsləhətçisi tarix elmləri doktoru professor Abbas Seyidov, rəyçilər tarix elmləri namizədləri Bəhlul İbrahimli və Rəsul Bağırovdur.

Giriş, dörd fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından və illüstrasiyalardan ibarət olan tədqiqat əsəri öz aktuallığı ilə Azərbaycan arxeologiyası üçün xüsusi əhəmiyyət kəsb edir və Naxçıvanın qədim dövr tarixinin daha dərindən öyrənilməsində mühüm yer tutur. Tədqiqat əsərində həm əvvəlki dövrlərdə, həm də son zamanlarda Gəmiqaya ətrafında aparılan elmi araşdırmaların nəticələri ümumiləşdirilərək bu ərazidəki abidələrdən, insanların həyat tərzindən, məşğuliyyətindən, dini-ideoloji görüşlərindən, qonşu tayfalarla mədəni-iqtisadi əlaqələrindən bəhs edilir.

Tədqiqat işində müəllifin iştirakı ilə ilk dəfə qeydə alınmış abidələrin öyrənilməsi, elmi dövriyyəyə buraxılması onun əhəmiyyətini daha da artırır. Tədqiqat nəticəsində Gəmiqaya ətrafındakı Tunc, Dəmir, antik və orta əsrlər dövrlərinə aid abidələr kompleks şəkildə öyrənilərək bu ərazidə insanların 6 min ildən artıq bir dövrdə müntəzəm şəkildə məskunlaşdığı elmi qənaətinə gəlinib. Qayaüstü təsvirlərlə bağlı aparılan araşdırma zamanı Gəmiqaya rəsmlərinin bir qrupunun dövrü müəyyənləşdirilərək bu tip təsvirlərin yayılma arealına dair yeni tapıntılar ilk dəfə elmi dövriyyəyə daxil edilib. Rəsmlərdə prototürk mədəniyyətinə aid xüsusiyyətlər aşkar edilərək Naxçıvan Muxtar Respublikasının bütün bölgələri kimi Gəmiqaya ətrafında da tarixən türk etnoslarının məskunlaşdığı bir daha sübut edilib.

Ümidvarıq ki, əsər tədqiqatçıların, oxucuların diqqətini cəlb edəcək, Azərbaycan arxeologiyasında özünəməxsus yer tutacaq və Naxçıvan arxeologiyası ilə bağlı elmi-tədqiqat işlərinin, ümumiləşdirici əsərlərin yazılmasında faydalı olacaqdır.

**Asəf ORUCOV**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

## *“Qış məktəbi”*nin ikinci mərhələsi başa çatıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyinin, həmçinin təşkilatın Heydər Əliyev adına Gənclər Birliyinin və Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələri tələbələrinin Ağbulaq İstirahət Mərkəzində “Qış məktəbi”nin ikinci mərhələsi başa çatıb.

Olduqca maraqlı və əyləncəli keçən bu müddət ərzində tələbələr müxtəlif idman növlərində qüvvələrini sınayıb. “Vətəni tanı”, “Nuh yurdu”, “Axtar tap” kimi müxtəlif intellektual oyunlarda mübarizə aparıblar. Həmçinin gənclərə “Qış məktəbi” çərçivəsində vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib. Şahbuz Rayon Mədəniyyət Evinin “Batabat” İnstrumental Ansamblı kollektivinin çıxışları isə iştirakçılarda xoş ovqat yaradıb.

Bununla yanaşı, “Qış məktəbi”nin ikinci günündə tələbələr Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı olması ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin əməkdaşının mühazirəsini dinləyiblər. Mühazirədə gəncləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, gənclərin sağlamlığı da təşkilatçılar tərəfindən daim diqqət mərkəzində saxlanılıb, bu məqsədlə düşərgəyə həkim də dəvət olunub.

İştirakçılara gündə üç dəfə milli mətbəximizin nemətləri təklif olunub, onlara çay süfrəsi təşkil edilib.

“Qış məktəbi”nin ikinci mərhələsində 50 tələbə iştirak edib.

**Ceyhun MƏMMƏDOV**

*Şəhərimizin qonaqları*

## Naxçıvan çinli turistlərdə xoş təəssüratlar yaradıb

*Muxtar respublikamızda turizmin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər bəhrələrini verməkdədir. Yaradılan infrastruktur şəraiti, turistlərə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində verilən tapşırıqlar qısa müddətdə Naxçıvana səyahət etmək istəyən turistlərin marağının artmasına mühüm təsir edib. Bir qrup çinli turistin də Naxçıvan haqqında xoş təəssüratları belə deməyə əsas verir. Səfərin sonuncu günü Duzdağ Fizioterapiya Mərkəzində turistlərlə görüşüb təəssüratlarını öyrəndik.*

Turistlərdən Jou Li dedi ki, Naxçıvanda ilk dəfə olur. İxtisasca mühəndisdir. Əvvəllər işi ilə əlaqədar ölkəmizin paytaxtına gəlsə də, bu diyar haqqında təsəvvürü çox olmayıb. Digər 7 nəfər həmkarı ilə birgə budəfəki istirahətini Naxçıvanda keçirdiyinə görə çox məmnundur. Hava limanındakı qarşılamadan tutmuş bütün qonaqpərvərlik servislərinin yüksək səviyyədə olduğunu vurğulayan çinli qonaq burada hazırlanan milli yeməklərin çox dadlı olduğunu xüsusilə qeyd etdi. O, Əshabi-Kəhf ziyarətgahından, Naxçıvan şəhərindəki muzeylərdən aldığı təəssüratı sosial şəbəkələr vasitəsilə dostları ilə paylaşacağını da bildirdi.



Duzdağı heyranlıqla seyr etdiyini bildirən digər bir Çin vətəndaşı Li Bouen isə duzla müalicənin mümkünlüyü haqqında ilk dəfə burada, Naxçıvanda eşitdiyini dedi. Onun bu fikirlərini Duzdağ şaxtasında olan digər turistlər də təsdiq etdilər. Üçgünlük tur proqramı çərçivəsində Naxçıvan şəhəri ilə yaxından tanış olduqlarını bildirən turistlər, xüsusilə buradakı təmizlikdən, çox sayda tarixi abidələrdən və eləcə də qaldıqları oteldəki, yüksək qonaqpərvərliklə qarşılandıqları restoranlardakı səliqə-sahmandan bəhs etdilər. Ölkəmizin paytaxtından uzaq, birsaatlıq uçuş məsafəsində yerləşən Naxçıvanın müasir inkişaf mənzərəsinin onlarda təəccüb doğurduğunu, buradakı yolların, küçələrin təmizliyini xüsusilə bəyənən turistlər Naxçıvanqalanın, Nuh Peyğəmbərin türbəsinin ziyarətindən sonra təsəvvürlərinin çox dəyişildiyini də bildirdilər. Onlar, həmçinin Naxçıvanın bu il İslam Mədəniyyəti Paytaxtı və Azərbaycanın Gənclər Paytaxtı olduğunu öyrəndiklərini, qədim memarlıq abidələri haqqında məlumat aldıqlarını, tarixi İpək Yolu üzərindəki əhəmiyyəti və həmçinin müasir inkişafı və xarici iqtisadi əlaqələri haqqında da xeyli informasiya əldə etdiklərini də qeyd etdilər. Səfərin son günündə şəhərdəki bazardan və marketlərdən alış-veriş edən turistlərin yerli istehsal olan şərablara, meyvə qurularına və Naxçıvan duzuna maraq göstərdiklərinin şahidi olduq.



✍ **Əli CABBAROV**

## Karateçilərimizdən daha 5 medal

İran İslan Respublikasının Astara şəhərində keçirilən beynəlxalq idman olimpiadasına yekun vurulub. Turnirdə taekvando və cüdo növləri ilə yanaşı, karate üzrə də yarışlar təşkil edilib. Turnir Karate Federasiyasının qaydalarına əsasən kumite və kata bölmələrində keçirilib. Bu növdə idmançılar 6 yaş kateqoriyasında mübarizə aparıblar. Azərbaycan millisinin heyətində qonşu ölkədə iki idmançımız – Vüsal Seyidov (12-13 yaş) və Aslan İsmayılov (14-15 yaş) da mübarizə aparıblar. Hər iki idmançımız uğurlu çıxış edərək Vətənə medallarla qayıdıb.

Belə ki, 12-13 yaş qrupunda 40 kiloqram çəki dərəcəsində mübarizə aparan Vüsal Seyidov bütün rəqiblərinə qalib gələrək turnirin baş mükafatını qazanıb. 70 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxan digər idmançımız Aslan İsmayılov isə turnirin üçüncüsü olub.




Bununla yanaşı, idmançılarımız Bakı şəhərində "Araz" idman klubunun təşkilatçılığı ilə Xocalı soyqırımına həsr olunmuş açıq turnirdə də iştirak ediblər. Bu turnirdə də Vüsal Seyidov 12-13 yaşlı idmançıların mübarizəsində qalib adını qazanıb. Aslan İsmayılov isə kumite yarışlarında birinci, kata yarışlarında isə ikinci olub.

Sonda idmançılarımıza diplom və medallar təqdim edilib.

## Atletlərimiz Azərbaycan çempionatında uğurla çıxış ediblər



***Bakı şəhərində yüngül atletika üzrə Azərbaycan çempionatı keçirilib.***

Ölkə birinciliyində Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının yetirmələri də mübarizə aparıblar. İki gün davam edən çempionatda atletlərimiz fərdi yarışlarda 6, kollektiv yarışlarda isə 1 dəst medal qazanıblar.

Çempionatın ilk günündə atletlərimizdən Gülayə Cəfərova 1500 metr məsafədə bütün rəqiblərini geridə qoymağı bacarıb. Digər atletimiz Sevgi Məmmədli həmin məsafədə qaçış üzrə bürünc medal qazanıb.

Çempionatın ikinci günündə isə Gülayə Cəfərova 3000 metr məsafədə qüvvəsini sınayıb və idmançımız yenə də fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Ümumiyyətlə, bu məsafədə qaçış üzrə ilk 3 pillədə Naxçıvan idmançıları qərarlaşıblar. Belə ki, Xatun Oruclu və Sevgi Məmmədli müvafiq olaraq ikinci və üçüncü olublar.

Oğlanların mübarizəsində isə Səfər Tağıyev 3000 metr məsafədə qaçış üzrə Azərbaycan çempionatının bürünc mükafatçısı olub. Oğlanlardan ibarət komandamız 4x200 metr estafet qaçışında ölkə birinciliyinin bürünc medalını qazanıb.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən diplom və medallarla təltif olunublar.

Qeyd edək ki, ötən gün Azərbaycan Atletika Federasiyası Hakimlər Kollegiyası sədrinin və yaş qruplarına uyğun olaraq baş məşqçilərin iştirakı ilə seminar keçirilib. Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının məşqçi-müəllimləri və ölkə birinciliyində uğur qazanan idmançıların iştirak etdiyi seminarda yeni qaydalar haqqında məlumatlar verilib, iştirakçılar təlimatlandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

## Culfa rayonunda maarifləndirici tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə Culfa rayonunun Kırna kəndində maarifləndirici tədbir keçirilib. Mədəni və yabanı dərman bitkilərinin mövsümə uyğun yığılması, qurudulması, onlardan bitki ekstraktlarının hazırlanması qaydaları ilə bağlı ailə təsərrüfatları üçün keçirilən tədbiri Culfa Rayon İcra Hakimiyyətinin əməkdaşı Sərxan Hüseynov açıb.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Bitki sistematikası şöbəsinin müdiri, biologiya elmləri doktoru, professor Əliyar İbrahimov Naxçıvan Muxtar Respublikası ərazisində yayılmış dərman bitkilərinin toplanması və qurudulması qaydaları, onların xammal şəklində tədarükünün təşkili haqqında geniş məlumat verib.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin şöbə müdiri Əli Şərifov bildirib ki, muxtar respublikamızın təbii iqlim şəraiti, münbit torpaqları regionumuzda kənd təsərrüfatının digər sahələri ilə yanaşı, müalicəvi dərman bitkilərinin yetişdirilməsi və yayılmasını da təmin edib. Bu mənada, mədəni və yabanı dərman bitkilərinin tələblərə uyğun yığılması, qurudulması, onlardan bitki ekstraktlarının hazırlanması bu işlə məşğul olan ailə təsərrüfatlarının müvafiq biliklərə malik olmalarını zəruri edir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri Elnur Mahmudov çıxışında deyib ki, dərman bitkilərinin toplanması, qablaşdırılması və satışının həyata keçirilməsinin iqtisadi cəhətdən böyük əhəmiyyəti var. Bu istiqamətdə aparılan tədbirlərin davamı olaraq Naxçıvan şəhərində ailə təsərrüfatı məhsulları üçün taraların satışı mağazası istifadəyə verilib. Ailə təsərrüfatlarının sahibləri istənilən vaxt mağazaya müraciət edib istehsal etdikləri məhsullar üçün taraların sifarişini verərək öz məhsullarını qablaşdıra bilərlər.

Tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb, maarifləndirici bukletlər paylanılıb.

✍ **Nail ƏSGƏROV**

*Xalq təqvimi*

## Boz ay haqqında nə bilirik?

Xalq təqvimi sistemimizdə xüsusi yer tutan boz ay xalqımızın adət-ənənəsinə görə, Novruz bayramı gəlməzdən əvvəl olan dövrə verilən addır. Xalq arasında bu dövrə müxtəlif adlar: "boz ay", "alaçalpo(v)", "çillə-beçə", "ağlar-gülər ay" da deyirlər. Ayın bu cür adlanması onun buludlu, yağışlı, küləkli, bəzən də günəşli, bir sözlə, dəyişkən olması ilə bağlıdır. Xalq arasında, adətən, mart, aprel, may yaz ayları kimi hesablansa da, yaz fəsli martın 21-dən 22-nə keçən gecə yurdumuza qədəm qoyur.

Professor Eybalı Mehrəliyev "Xalq coğrafi terminlərinin izahlı lüğəti" kitabında alaçalponun 22 fevral-22 mart arasında olduğunu, qışın sonunda yağan qara da "alaçalpo" deyildiyini qeyd edir. Boz ayın isə qışın son yarım ayı ilə yazın əvvəlinci yarım ayını əhatə etdiyini (6 mart-6 aprel) yazır.

Boz ayda 4 ünsür – su, torpaq, yel və odla bağlı dörd çərşənbə təntənəli şəkildə qeyd edilərmiş. Bunlar "Cəmlə", "Cəmilə", "Cəlimə" də adlanır. Belə rəvayət olunur ki, qədim dövrlərdə insanlar ili 12 aya bölür, hər aya 32, boz aya isə 14 gün düşür. Boz ayın incidiyini görən ayların hər biri boz aya bir gün verir. Boz ay yenə razılaşmır. Ancaq bu dəfə ayların bəziləri bir gün versə də, digərləri vermir.

Boz ayda olan dörd çərşənbə müqəddəs sayılmış və təbiətin dəyişilməsində dörd ünsür: su, torpaq, yel və od mühüm rol oynamışdır. Buna muxtar respublikamızın bəzi kəndlərində "cəmlələr" də deyirlər. Yəni ilk cəmlə suya düşür və bundan sonra su donmur. Tədqiqatçılar dörd çərşənbənin ilk üçünün "doğru üskü", sonuncunun isə "ilin axır çərşənbəsi" olduğunu qeyd edirlər.

Əhali boz ayda, adətən, bayrama hazırlaşır. İlk əvvəl bayram səmənisi qoyurlar. Bütün qışı içəridə yanan buxarı və kürsü təndirinin tüstüsü tavan və divarları qaraltdığı üçün əvvəlcə evlər təmizlənər, divarlar ağardılardı. Həmin dövrdə əhəng tapmaq çətin olduqda müəyyən ərazidə olan ağ torpaqlardan istifadə edilərdi. Babək rayonunun Sirab kəndindəki "Yal" adlanan təpədəki "Ağtorpaqlıq"dan qonşu kəndlərdən də gəlib ağ torpaq apararmışlar.

Professor Mirəli Seyidov 4 mart 1989-cu ildə "Kommunist" qəzetində dərc olunan "Yaz-Günəş bayramı" sərlövhəli məqaləsində yazır ki, qədim azərbaycanlılar təqvimlə bağlı vaxt anlayışını hərdən animisləşdirmiş, canlandırmış, hərdən insan kimi gözə çarpdırmış, hərdən isə zoomorfik dünya ilə əlaqələndirmişlər.

"Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nda yer alan bir tapmaca da çox maraqlıdır:

*Bir ağacım var,*
*On iki budaqlı,*
*Otuz iki yarpaqlı.*

Etnoqraf Qəmərşah Cavadov da bu mövzuya uyğun iki folklor nümunəsini misal çəkir:

*Babamın bir çuxası var, on iki cibi.*
*Hər cibində otuz düymə.*
*Hər düymənin bir üzü ağ, bir üzü qara.*

Bu nümunədə baba kainatı, çuxa ili, on iki cib ilin aylarını, otuz düymə ayın günlərini, düymələrin ağ üzü gündüzü, qara üzü isə gecəni təmsil edir. İkinci folklor nümunəsi isə "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nda olan tapmacanın yeni formasıdır ki, "bir budağın otuz yarpağı" olduğu yazılmışdır. Bu cür bağlama formalı söyləmələr bizim aşıq ədəbiyyatında da öz əksini tapmışdır. Molla Cümə "Varmı" adlı qoşmasında belə yazır:

*Bir guş eylər Molla Cümə bədbəxtə,*
*Bir çıraq görmüşəm yeddi otaqda.*
*On iki şəcərdə, üç yüz altmış budaqda,*
*Gül olan otuzdan xəbərin varmı?*

Boz ayla bağlı folklorşünas Bəhlul Abdulla "Kommunist" qəzetinin 24 fevral 1989-cu il tarixli nömrəsində işıq üzü görmüş "Novruz gəlir" adlı məqaləsində yazır: "Boz ay çillə beçələrə bölünür. Etiqada görə, çərşənbələrdən birinci üçünə "oğru buğ" ("oğru üskü"), ikinci üçünə "doğru buğ" ("doğru üskü"), sonuncuya isə ilaxır çərşənbə deyilir. Bu çərşənbələrin hər birinin ayin və mərasimləri vardır. Məsələn, torpağa dəyən ilk "oğru buğ"da adamlar tonqal üstündən hoppanmaqla yanaşı, öncədən düzəltdikləri lopanı alışdırıb üç kərə ev-eşiyin çevrəsinə dolandırıb: "Qaçın-qaçın, şeytanlar, sizi oda qalaram", – deyərmişlər. Ayinə görə şər qüvvələr qorxub qaçarmışlar".

Etnoqraf Asəf Orucov "Xalq təqvimi" kitabında xalq arasında od çərşənbəsinə "üskü çərşənbə" deyildiyini qeyd edir. O, Bəhlul Abdullanın 1984-cü ilə aid yazısına istinadən dörd çərşənbənin ilk üçünü "doğru üskü", sonuncunun isə "ilin axır çərşənbəsi" olduğunu yazır. Onun 1989-cu ildə işlətdiyi "yeddi çərşənbə" ifadəsi də maraq doğurur. Belə aydın olur ki, kiçik çillənin başlanğıcından (Səddə bayramından Novruz bayramına 50 gün qalmış) çərşənbələr qeyd olunmuşdur. Sadəcə, boz aya qədər olan çərşənbə "oğru üskü", "oğru buğ" adlandırılmışdır. Bəhlul Abdulla və Tofiq Babayev "Azərbaycan etnoqrafiyası" kitabında Səddə bayramında "el tonqalı" – hamının başına toplaşdığı böyük tonqal yandırıldığını yazırlar. Bəzi yaşayış məntəqələrində kiçik çillənin ikinci çərşənbəsi Xıdır Nəbi bayramını keçirməsi, bəlkə də, bununla bağlıdır.

Boz ay haqqında bir neçə deyim də vardır: "Boz ay bozara-bozara keçər"; "Boz ay kimi qərarsız".

İkinci deyimi yuxarıda qeyd etdiyimiz rəvayətlə əlaqələndirirlər. Bütün aylar boz aya gün verdiyi üçün boz ayda havalar tez-tez dəyişir. Boz aya həm də "bayram ayı" deyirlər. Havalar əlverişli keçəndə palazxalçalar çırpılır, ev-eşik bayramsayağı döşənir. Bayramqabağı bazar-dükanlarda tünlük olacaq deyə, vaxtdan bayram tədarükü görülür.

**Zaleh NOVRUZOV**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 151